

# 20 Yanvar tariximizin həm qanlı, həm də qəhrəmanlıq səhifəsidir

## "Şəhidlər unudulmur" mövzusunda şeir müsabiqəsi

*Qəbələ Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə yanvarın 18-də məktəblilər arasında 20 Yanvar faciəsinin iyirmi yeddinci ildönümünə həsr edilmiş "Şəhidlər unudulmur" mövzusunda şeir müsabiqəsi keçirilmişdir. Müsabiqənin əsas qayəsi Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil olmuş qanlı yanvar şəhidlərinin qəhrəmanlıq nümunələrinin xalqımızın qan yaddaşından heç vaxt silinməyəcəyini, şəhidliyin müqəddəs bir zirvə olduğunu məktəbli gənclərə çatdırmaq olmuşdur. Eyni zamanda şagirdlərə vətənpərvərlik hisslərinin aşılanması, onların bədii yaradıcılıq potensialının stimullaşdırılması məqsədilə keçirilən tədbirdə rayonun müxtəlif məktəblərindən 40 nəfər şagird iştirak etmişdir.*

Müsabiqənin açılış mərasimində 20 yanvar şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir. Sonra gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov, təhsil şöbəsinin metodik kabinetinin müdiri Arifə Bayramova və metodisti Aslan Şirazov çıxış edərək 20 yanvar faciəsinin baş vermə səbəbləri barədə danışmış, bu faciəni doğuran o vaxtkı ictimai-siyasi vəziyyət barədə tədbir iştirakçılarına məlumat vermişlər.



Müsabiqə iştirakçıları şəhidlərimizə, milli qəhrəmanlarımıza və vətənpərvərlik mövzusuna həsr olunmuş şeirlər söyləmişlər.

Müsabiqənin əsasnaməsinə uyğun olaraq Soltan Ağayev I yerə, Orxan Məsimov, Gülnur Yolçuyeva II yerə və Almaz Rəsulova, Dilbər Ağayeva, Gülnaz Kərimli III yerə layiq görülmüşlər.

Qaliblər gənclər və idman idarəsinin diplom və xatirə hədiyyələri ilə mükafatlandırılmışlar.

**Mübariz AĞAYEV,**
**gənclər və İdman idarəsinin aparıcı məsləhətçisi.**
**Səhrab Umuyev.**

## 20 Yanvar şəhidlərinin anım günü

Qəbələ Rayon Mərkəzi Kitabxanasında 20 Yanvar faciəsinin ildönümü ilə əlaqədar anım tədbiri keçirilmişdir. Tədbiri giriş sözü ilə MKS-nin direktoru Ramiz Mirzəyev açmışdır. Tədbir iştirakçıları əvvəlcə 20 Yanvar faciəsində həlak olanların xatirəsini bir dəqiqəlik sükutla yad etmişlər.

Daha sonra qeyd olunmuşdur ki, 20 yanvar hadisəsi xalqımızın yaddaşına qanlı faciə kimi daxil olsa da, tariximizin ən şanlı qəhrəmanlıq səhifələrindən birini təşkil edir. Məhz 20 Yanvardan başlayaraq Azərbaycan xalqı SSRİ-nin tərkibində ədaləti bərpa etməyin mümkünlüyünə və milli haqlarımıza obyektiv yanaşma nümayiş olunacağına öz inamını itirdi.

Yanvarın 19-da gecə qoşun fövqəladə vəziyyət elan edilməsindən xəbərsiz olan şəhərə daxil oldu və əhaliyə divan tutdu.

Bakıda fövqəladə vəziyyətin elan olunması haqqında məlumat isə əhaliyə yalnız yanvarın 20-də səhər saat 7-də respublika radiosu ilə çatdırıldı. Halbuki, Mixail Qorbaçovun Azərbaycana ezam etdiyi yüksək vəzifəli emissarlar həyasızcasına bəyan edirdilər ki, Bakıda fövqəladə vəziyyət tətbiq olunmayacaqdır.

1993-cü ildə ulu öndər Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışından sonra 20 Yanvar faciəsinin baş verməsinin səbəblərinin araşdırılması və onu törədənlərin məsuliyyətə cəlb olunması, 20 Yanvar faciəsinin xalqımızın tarixində yeri və rolunun müəyyənləşdirilməsi, bu tarixin əbədiləşdirilməsi və bütün dünya ictimaiyyətinə çatdırılması yönündə mühüm işlər görülmüşdür.

Ümummilli liderin 1994-cü il yanvarın 5-də 20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi ilə bağlı verdiyi Fərmanda Azərbaycan Respublikasının Milli Məclisinə faciəyə tam və əsaslandırılmış siyasi-hüquqi qiymət verilməsi tövsiyə olunmuşdur. Milli Məclis 1994-cü il martın 29-da 1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında qərar qəbul etdi. Bununla da Heydər Əliyevin təşəbbüsü və təkidi nəticəsində 20 Yanvar faciəsinə dövlət səviyyəsində hüquqi-siyasi qiymət verildi.

Çıxış edənlərdən Məlahət Qarayeva, Sevil Əhmədova, Almaz Məsimova, Arifə Kərimova, Maarif Həsənov bu gün Azərbaycan xalqının, Vətənimizin azadlığı uğrunda canlarını qurban edən şəhidlərimizin xatirəsinin çox böyük hörmət və ehtiramla yad edildiyini, şəhidlərimizin qanı bahasına qazanılan müstəqilliyimizi qanımızla və canımızla qorumalı olduğumuzu tədbir iştirakçılarının nəzərinə çatdırmışlar.

Tədbirin sonunda 20 Yanvar şəhidlərinə həsr olunmuş foto stendə və kitab sərgisinə baxış keçirilmişdir.

**Günel QARAYEVA,**
**Qəbələ MKS-nin işçisi.**

## O günlərin şahidiyəm

(Əvvəli 5-ci səhifədə).

Tbilisi prospektində yerləşən və Salyan kazarması adlanan hərbi hissə ərazisindən güclü avtomat və pulemyot atəşi səsləri gəlməyə başladı. Yaxınlasan fəlakəti başa düşənlərin çoxu mənzillərin işığını söndürmüşdü. Bir sözlə şəhər sakinləri həmin saatlarda vahimə içindəydilər. Televiziya yayımı da kəsildi. O gecə mənim qonaq qaldığım ev Salyan kazarmanın yaxınlığında idi. Kazarmadan atılan güllələrin bir neçəsi qaldığım binanın divarlarına dəymişdi. Qaranlıq pəncərədən baxarkən təcili yardım maşınlarının həyəcanlı siqnallarla hərəkət etdiyini görürdüm.

Yanvarın 20-də şəhər artıq matəm içində idi. Sakinlər gecənin vahiməsindən sanki donub qalmışdılar. Mərkəzi küçələr hərbçilər və hərbi texnikalar tərəfindən kəsilmişdi. Gedişgəliş mümkün deyildi. Mənim kimi rayona, evinə qayıtmaq istəyənlər, harasa tələsənlər yalnız kənar küçələrdən, keçilməz yerlərdən hərəkət etməli olurdular. Bu özü də çox qorxulu idi...

İndiki 20 Yanvar dairəsinin (keçmiş XI Qızıl Ordu) sovet hərbçilərinin gülləsinə tuş gələn, tankların tırtılları altında əzilən insanların qanı ilə boyanmasının şahidi oldum. Yol boyu insanların əl çantaları, ayaqqabıları və başqa əşyaları səpələnmişdi. Çoxsaylı əzilmiş və yanmış maşınlar yolun hərəkət hissəsini tutmuşdu. Mən dolayı yollardan keçərək çox çətinliklə şəhərdən çıxa bildim. O hadisədən sonra respublikamız xeyli müddət matəm içində yaşadı.

20 Yanvar hadisələrindən sonra Qəbələ rayonunun bütün sakinləri yaralılara yardım etmək üçün xeyli ərzaq topladılar. Biz 4 yük maşın ilə ərzağı Bakı şəhərinin 9 xəstəxanasında müalicə alan 300-dən artıq yaralıya çatdırdıq. Xəstəxanalarda o günlər mənim gördüyüm dəhşətli vəziyyət ömrümün axırına kimi xatirimdən silinməyəcək. Hər iki ayağını, əlini itirmiş yaralıların ah-naləsi... Müharibənin insanlara verdiyi sağalmaz dərdləri gözü ilə görmək nə dərəcədə ağır imiş...

Bu gün fəxr edirik ki, müstəqil Azərbaycanımız əmin-amanlıq şəraitində sürətlə inkişaf edir. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin gərgin fəaliyyəti, uzaqgörən siyasəti nəticəsində Azərbaycan dünya ölkələri arasında öz layiqli yerini tutmuşdur. Əminik ki, Ali Baş Komandanın yürütdüyü siyasət nəticəsində bizi narahat edən Qarabağ probleminin də tezliklə öz həllini tapacaqdır.

**Qərib QƏRİBOV.**

**REDAKSİYADAN:**

*Tariximizin qan yaddaşının indiki və gələcək nəsillərə çatdırılması və sevdirilməsi heç vaxt gec deyil. Həmişə təzədir və əsil vətənpərvərlikdir. Redaksiyamız 20 Yanvar faciəsi şəhidlərinin və müharibə veteranlarının təəssüratlarını həmişə dərc etməyə hazır-*

## Anım tədbiri keçirildi

*Nic qəsəbə 3 nömrəli tam orta məktəbində 20 Yanvar— Ümumxalq Hüzn Gününə həsr olunmuş anım tədbiri keçirildi. Əvvəlcə tədbir iştirakçıları 1990-cı il 20 Yanvar gecəsində azadlığımız uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsini bir dəqiqəlik sükutla yad etdilər.*

Tədbiri giriş sözü ilə məktəbin direktor müavini Babək Məmmədov açmış, dil-ədəbiyyat müəllimi Şahid İslamov "Azərbaycan ədəbiyyatında 20 yanvar mövzusu" adlı məruzə ilə çıxış etmişdir.

Məktəbin uşaq birliyinin rəhbəri Sevda Mirzəferovanın təşkilatçılığı ilə məktəb şagirdləri tərəfindən Bəxtiyar Vahabzadənin, Nəriman Həsənzadənin 20 Yanvara həsr olunmuş şeirlərindən ibarət ədəbi-bədii kompozisiya nümayiş etdirildi. Həmçinin məktəbdə keçirilmiş "20 Yanvar şəhidlərinin xatirəsi əbədidir" mövzusunda inşa müsabiqəsinə də yekun vuruldu.

Məktəbin X sinif şagirdi Gülmirə Məmmədova inşa müsabiqəsinin qalibi oldu.

**Aqil QƏDİROV,**
**məktəb direktorunun müavini.**

## Nərd yarışları

Bum qəsəbə yaradıcılıq evində tarixi günlərin, bayramların keçirilməsi ənənə halına çevrilmişdir. 20 Yanvar şəhidlərinin əziz xatirəsi bu il də unudulmamışdır. Bu münasibətlə yanvar ayının 15-dən 19-dək yaradıcılıq evində şəhidlərin xatirəsinə həsr olunmuş nərd yarışları keçirilmişdir. Yarışlarda 16 nəfər iştirak etmişdir. Oyunlar Firudin Şəfiyevin hakimliyi və yaradıcılıq evinin direktoru Zahir Aslanovun rəhbərliyi altında keçmişdir. Oyunlarda 3 nəfər finala vəsiqə almışdır. Final oyunları gərgin mübarizə şəraitdə başa çatmışdır. Əbülfəs Şəfiyev yarışların qalibi olmuş və birinci yerə çıxmışdır. Qalibə qiymətli hədiyyələr təqdim olunmuşdur.

**Eldar QULİYEV,**
**«Qəbələ»nin ştatdankənar müxbiri, AYB-nin üzvü.**